

biri – oğlu Turalı lap uşaq yaşlarından tanıyıram. Elə atası kimi, onun da sanki uşaq çağı olmadı. Necə ki Həsən Axundov oğlu Bəhruzu lap uşaq yaşlarından əməyə alışdırdı, eləcə də Bəhruz Axundov öz balalarını, o cümlədən, "Təhsil" nəşriyyatında bu gün onu əvəz edə biləcək Turalı zəhmətə alışdırdı. Bəhruz el-obaya yaraşan bir ailə qoyub getdi, Bəhruz Vətən sevgisinə, Qarabağ dərdinə bələnmiş bir dünya qoyub getdi, Bəhruz onu həmişə qəlbində yaşadacaq dostlar qoyub getdi. Bir də Bəhruz onun kamil tərbiyəsində az-çox zəhməti olmuş müəllimlərini qoyub getdi. Universitetin jurnalistika fakültəsində ona dərs demiş müəllimlərdən biri də mənəm. Mən yazımın sonunda içimdən gələn bir duanı təkrar etmək istərdim: "Tanrı Bəhruzun yerini behişt eləsin!" Mənim içdən gələn bu duam Tanrıya mütləq çatacaq. Çünki müəllim duası Tanrıya tez çatır.

**Cahangir Məmmədli**

## BORCLUYAM

*Dostum Bəhruz Axundovun*
*əziz xatirəsinə*

*Bir dostumu itirdim, dostluğunda çox ali,*
*Hər bir görüş anımız zəngin idi, dəyərli,*
*Zənginlik də, dəyər də Bəhruza bağlı idi,*
*Dostluğun dəyərini mən Bəhruza borcluyam.*

*Yaradan naşir idi bütün varlığı ilə,*
*Bir ustad idi dostum sevdiyi peşəsində,*
*Yaradırdı hər işi ruh ilə, sevgi ilə,*
*Bu dəqiq qənaəti mən Bəhruza borcluyam.*

*Biz adi ünsiyyəti dostluqla səhv salmadıq,*
*Ünsiyyət paklığını biz zirvəyə ucaltdıq,*
*İkimiz bir dostluğun məşəlini yandırdıq,*
*Onun əbədiliyini mən Bəhruza borcluyam.*

*Bizi heç aldatmadı maddiyyat şirinliyi,*
*Ruhumuz və mənəvi oldu dostluq hakimi,*
*Biz çox yaxşı bilirdik, dostluq nə qənimətdi,*
*Qənimət dostluğumu mən Bəhruza borcluyam.*

*Qız böyütdü qeyrətli, namuslu, cəsarətli,*
*Mənim dostumun qızı atanı Tanrı bildi,*
*O, ata-allahına ciyərini bəxş etdi,*
*Bu çox ali sevgidi, deməyə mən borcluyam.*

*Dostum köçdü dünyadan alilik zirvəsində,*
*Ən ali ehtiramla o getdi son mənzilə,*
*Övladları ataya haqqı qaytardı belə,*
*"Onlara halal olsun!" deməyə mən borcluyam.*

*Bəhruza dost olanlar, mənim əziz dostlarım,*
*Onun övladların bizlərə əmanət sandım,*
*Sizlərə – dostlarıma, sadəcə, xatırlatdım,*
*Sandım xatırlatmağa mən mənəvi borcluyam.*

**VAQİF ABBASOV**